# Siyavuş Novruzov: Onların məqsədi sırf iğtişaş törətməkdir



Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov "Milli şura" adlanan qondarma qurumun noyabrın 2-də Bakı şəhərinin mərkəzində təyin etdiyi qanunsuz mitinqdən imtina etməsinə münasibət bildirib. YAP İcra katibinin müavini Siyavuş Novruzov SİA-ya eksklüziv açıqlamasında deyib ki, mitinqdən imtina edilməsinə əsas səbəb radikalların elektoratlarının olmaması ilə bağlı idi: **"Onlar hesabladılar ki, bu addımı atmaq mümkün deyil, xalq tərəfindən heç bir dəstəyə malik deyillər və ictimai qınaq çox böyükdür. Sən mitinqə nə qədər insan yığsan da belə internetdə, sosial şəbəkələrdə, "facebook"da, o cümlədən internet televiziyalarında gedən məlumatları oxuyan daha çoxdur, nəinki ora gedənlər. Əgər səni maraqlandıran hansısa islahatdırsa, Dağlıq Qarabağ münaqişəsidirsə və yaxud da başqa məsələlərdisə bu fikirləri sadə şəkildə çatdır və insanlar da buna qulaq assınlar. Razılaşan razılaşıb "like" etsin, razılaşmayan isə öz rəyini və fikrini yazsın. Bir sözlə, bu məsələlərdə qarşılıqlı diskussiya olsun. Bu, o halda baş verir ki, internetə qadağa qoyurlar və heç bir sosial şəbəkə işləmir. Onların məqsədi sırf iğtişaş törətməkdir. Qabaqcadan öyrədilmiş insanlar, qadınlar var idi və onlar polisləri özlərinin aqressiv hərəkətlərinə adekvat addım atmağa təhrik etmək istəyirdilər ki, polislər qeyri-qanuni hərəkətlərə yol versin və yaxud da onları özlərindən çıxarsın. Lakin Azərbaycan polisi çox səbir və təmkinlə bu məsələləri öz qaydasına qoydu".**

S.Novruzov digər maraqlı məqamlara da toxunub: **"Digər tərəfdən, müxalifət indi bildirir ki, ora dini qruplaşmalar gəlmişdi. Mən mütəmadi olaraq onların başqa-başqa yerlərdə keçirdikləri mitinqlərini izləmişəm. Mitinqlərində hər zaman İranın, İslamın bayraqları dalğalanırdı və dindarlar iştirak edirdi. Orada çıxış edərkən Cəmil Həsənli, Əli Kərimli və digərləri həmişə onları xüsusi salamlayırdılar. Hətta çıxış etdikləri zaman yanlarında həmişə din nümayəndələri də dayanırdı. Amma indi Əli Kərimli deyir ki, guya iqtidar mitinqə dini qruplaşmalar cəlb edərək iğtişaş yaratmaq istəyir. Beynəlxalq təşkilatların nümayəndələri də gördülər ki, bunlar heç bir şeyə qadir deyillər. Bu gün radikal müxalifət siyasi düşüncə ilə deyil, əksinə hava proqnozu ilə işləyir. Bu günlərdə Cəmil Həsənli Vaşinqtonda mətbuat konfransı keçirdi. Mən həmin görüntüləri izlədim. Mətbuat konfransına haradansa 2 erməni tapıb gətirmişdilər. Sevinc Osmanqızı da orada iştirak edirdi. Əgər belə idisə Sevinc Osmanqızı Amerikadan, Cəmil Həsənli də buradan danışardı. Onsuz da bütün günü danışmaqla məşğuldurlar. Axı bunu şou kimi sərgiləməyə, görüntü yaratmağa nə ehtiyac var idi? Təsəvvür edin ki, Amerika Konqresi türklərə qarşı qondarma "erməni soyqırımı"nı tanımaq haqqında qətnamə qəbul etdiyi günün səhərisi özünü "tarixçi", "alim" hesab edən və tarixdən məlumatı olmayan Cəmil Həsənli bir kəlmə də olsun "erməni soyqırımı" haqqında fikir söyləmədi. Çünki onun yanında oturanlar erməni idi və dərhal verdikləri vəsaiti kəsəcəkdilər".**

# YAP İcra Katibliyində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə tədbir keçirilib

## *Siyavuş Novruzov: Yeni Azərbaycan Partiyasının üzvləri bir gündə 650 min ağacın əkilməsi aksiyasında fəal iştirak edəcəklər*




Noyabrın 1-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə tədbir keçirilib.

YAP Gənclər Birliyinin fəallarının iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə bir gün ərzində 650 min ağacın əkilməsi ilə bağlı hazırlıq işləri müzakirə olunub.

Çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsünün xalqımız tərəfindən yüksək dəyərləndirildiyini bildirib. S.Novruzov qeyd edib ki, YAP Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə fəaliyyət proqramı əsasında müxtəlif layihələr həyata keçirir. Böyük mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə keçiriləcək ağacəkmə kampaniyasında da hər iki təşkilat əməkdaşlıq edəcək.



Yeni Azərbaycan Partiyasının hər il Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə ağacəkmə aksiyası keçirdiyini deyən S.Novruzov partiyamızın mütəmadi olaraq müxtəlif sosial, iqtisadi və humanitar xarakterli layihələr reallaşdırdığını söyləyib. O, həmçinin Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə keçirilən "700 min ağac əkək!" kampaniyasının da bütün respublika ərazisində uğurla baş tutduğunu xatırladıb.

S.Novruzov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir gün ərzində 650 min ağacın əkilməsi aksiyasında da partiya üzvlərinin fəal iştirak edəcəyini diqqətə çatdırıb. Onun sözlərinə görə, həmin ağacların əkilməsindən sonra onlara qulluğun göstərilməsi partiyanın diqqətində olacaq. Və bütün bu işlərdə YAP-ın gənc fəalları yaxından iştirak edəcəklər.

Tədbirdə çıxış edən ekologiya və təbii sərvətlər nazirinin müavini, YAP Siyasi Şurasının üzvü Firdovsi Əliyev bildirib ki, artıq bir gündə 650 min ağacın əkilməsi üçün ərazilər müəyyənləşib. Bu prosesə rəmzi olaraq Şamaxı rayonundan başlanacaq.

F.Əliyev Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın daim xoşməramlı, xeyirxah təşəbbüslərlə çıxış etdiyini deyib və bu təşəbbüslərin cəmiyyətimiz tərəfindən rəğbətlə qarşılandığını söyləyib. Nazir müavini, həmçinin Yeni Azərbaycan Partiyasının da hər zaman ekologiya və ətraf mühitin qorunmasına töhfələr verdiyini diqqətə çatdırıb.

**Nardar BAYRAMLI**

# Mərdəkan Mədəniyyət Sarayında Nəsiminin 650 illiyi ədəbi-musiqili tədbirlə qeyd olunub

Noyabrın 1-də Mərdəkan Mədəniyyət Sarayında İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Nəsimiyə həsr olunan nəzirə və təxmislər söylənilib, muğam ifa olunub.

Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri Arif Buzovnalı bildirib ki, 2019-cu il Azərbaycan xalqının tarixində ədəbiyyatın, mənəviyyatımızın yüksəliş ili kimi qalacaq. **"Nəsimini tək hürufi şairi adlandırmaq olmaz. Çünki onun yaradıcılığında bütün dinlərin ideoloji nöqtələrini görə bilərik. Nəsimi yaradıcılığının mərkəzində insan dayanır"**, - deyə A.Buzovnalı vurğulayıb.



Azərbaycan Yazıçılar Birliyinin Cənub bölməsinin sədri Sayman Aruz ədəbiyyatımıza göstərilən diqqətə görə ölkə başçısı İlham Əliyevə və Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevaya təşəkkürünü bildirib.

Nəsimi fəlsəfəsindən söhbət açan S.Aruz deyib ki, insanlar tarixboyu qarşıya qoyduqları hədəflərinə doğru gedərkən çox vaxt nəfslərinin qurbanı olurlar. Nəsimi öz kəlamları ilə çoxlarını bu bəladan qurtarmağa çalışır.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi bildirib ki, musiqiyə, klassik ədəbiyyatımıza olan sevgi yaşayır, ənənələr qorunub saxlanılır. O, ədibin kəlamlarını söyləyib və izahını verib.

Tədbir çərçivəsində Nəsiminin əsərləri, haqqında yazılan kitablar və o dövrü əks etdirən sənət nümunələrindən ibarət sərgi də nümayiş olunub.

# MÜXALİFƏTİN NÖVBƏTİ SİYASİ FİASKOSU



**Şəmsəddin Hacıyev,**
**MM-in deputatı, YAP Səbail rayon təşkilatının sədri, professor**

2018-ci ildən başlayaraq Azərbaycan yeni inkişaf mərhələsinə - əsaslı keyfiyyət dəyişiklikləri, sistemli islahatlar dövrünə qədəm qoymuşdur. Postneft dövrünün yeni iqtisadiyyatının qurulması və iqtisadiyyatın şaxələndirilməsi, idarəetmədə rəqəmsallaşmanın, şəffaflığın yüksəldilməsi, ictimai nəzarətin gücləndirilməsi, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması, məmur özbaşınalığına son qoyulması, əhalinin rifah səviyyəsinin yüksəldilməsi istiqamətində effektiv sosial islahatlar paketinin reallaşdırılması, institusional islahatların dərinləşdirilməsi, dövlət idarəetmə strukturlarının təkmilləşdirilməsi və kadr islahatlarının həyata keçirilməsi məhz bu dövrün əsas səciyyəvi cəhətləridir. Müstəqilliyimizin xüsusilə son 16 ilində Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu istiqamətində geniş islahatlar həyata keçirilmiş, bütün fundamental azadlıqlar, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı tam təmin edilmiş, vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti üçün əlverişli şərait formalaşdırılmışdır. Hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı, 5 mindən çox kütləvi informasiya vasitəsi, 20 mindən çox internet saytı qeydiyyata alınmış, əhalinin 80 faizi internet, 3 milyona qədəri isə sosial şəbəkə istifadəçisidir. Bir sözlə, ölkəmizdə hər bir vətəndaşın öz sözünü və fikirlərini sərbəst şəkildə ifadə edə bilməsi üçün, hətta dünyanın əksər ölkələrinə nümunə ola biləcək səviyyədə bütün şərait mövcuddur. Belə olan təqdirdə, özünü "Millli şura" adlandıran müxalifət qüvvələrinin icazəsiz mitinqlər keçirmək niyyətləri və cəhdləri heç bir sağlam düşüncəyə sığmır. Dəfələrlə bu destruktiv müxaliflərin mitinq keçirmələrinə razılıq verilməsinə baxmayaraq, onlar müəyyən bəhanələrlə, əslində isə kifayət qədər ictimai dəstək, tərəfdar toplaya biləcək gücdə olmadıqlarından həm imtina edirlər, həm də şəhərin mərkəzi küçə və meydanlarında, nəqliyyatın və əhalinin gediş-gəlişinin intensiv olduğu yerlərdə, hətta metronun xüsusi mühafizə zonalarında yerləşən məkanlarda icazəsiz mitinqlər, yürüşlər keçirməyə və beləliklə, ictimai asayişi kobud şəkildə pozmağa cəhd göstərirlər. Yenə də növbəti icazəsiz mitinqə hazırlaşan radikalların bu cür canfəşanlıqlarının nədən qaynaqlandığı cəmiyyətdə müəyyən müzakirələrə səbəb olan bəzi məqamlara aydınlıq gətirilməsinə zərurət yaradır.

Çox sadə və haqlı sualdır, özlərini müxalifət adlandıran bu radikal qüvvələrin məqsədi nədir? Cavab isə aydındır: ölkədə gedən pozitiv işlərə kölgə salmaq, ictimai-siyasi sabitliyi, asayişi və əmin-amanlığı pozmaq, vətəndaş-polis qarşıdurması yaratmaq, qəsdən özlərinə xəsarət yetirmək və ya polisi buna təhrik edərək sanki hakimiyyət tərəfindən onlara qarşı zor tətbiq edilirmiş kimi görüntülər yaratmaq, bununla da Azərbaycanın gündən-günə yüksəlməkdə olan beynəlxalq imicinə və nüfuzuna xələl gətirmək, ölkəmizdə guya demokratiyanın, insan haqları və azadlıqlarının pozulduğu haqqında xarici mətbuatda, xüsusilə sosial şəbəkələrdə, internet TV kanallarında səsləndirdikləri əsassız, sərsəm, şər-böhtan və qarayaxmalarla dolu bəyanatlarını sübut etməyə çalışmaq, ən başlıcası isə maliyyələşdirildikləri mənfur, Azərbaycanın uğurlarını gözü götürməyən, ölkəmizi xaos, anarxiya, vətəndaş qarşıdurması və itaətsizliyi ocağına çevirmək arzusunda olan xarici dairələrin məmnunluğunu qazanmaqdır.

Başqa bir sual da yaranır, əslində normal və sağlam müxalifətin başlıca məqsədi nədən ibarət olmalıdır? Demokratik cəmiyyətlərdə bu sualın yeganə bir cavabı var: vətəndaşların etimadını, rəğbətini qazanaraq seçkilərdə üstünlük əldə etməklə sivil və demokratik yolla hakimiyyətə gəlmək. Bu baxımdan, müxalifətin məhz seçki ərəfəsində fəallığının daha da artması başadüşüləndir və qanunlarımız da nəinki buna mane olmur, hətta geniş imkanlar yaradır. Ölkəmizdə bir sıra müxalifət partiyaları mövcuddur ki, onlar yaradılmış bu imkanlardan və demokratik mühitdən yararlanaraq öz sağlam siyasi mübarizəsini davam etdirirlər. Misal olaraq göstərmək olar ki, bu gün Milli Məclisdə rəsmi qeydiyyatdan keçmiş on iki partiyanın nümayəndələri təmsil olunur və seçilmiş deputatların 41%-ə qədəri bitərəf və qeyri-iqtidar partiyasının üzvləridir. Bütün bunlara rəğmən, məlum dağıdıcı müxalifət qüvvələri hər dəfə seçkiöncəsi proseslərdə xoşagəlməz, qanunazidd və iyrənc hərəkətləri ilə yadda qalır, həlledici məqamda - seçkilərdə iştirak etmir, hər vəchlə seçkiləri boykot etməyə çalışır, hətta səsverməyə gəlməyərək öz vətəndaşlıq borclarını belə yerinə yetirmirlər, seçici fəallığını azaltmaq və seçkilərin baş tutmaması üçün bütün qanunsuz yollara əl atırlar, hakimiyyətə çevriliş, dağıdıcılıq, hərc-mərclik, anarxiya yolu ilə gəlmək istəyirlər. Budəfəki cəhdləri ilə onların hələ də öz ənənəvi qaragüruhçu əməllərindən əl çəkmədiklərini, köhnəfikirli və uğursuz liderlərindən hələ də təmizlənmədiklərini, çox az sayda olsa da, gənc üzvlərindən öz çirkin mənafelərinə uyğun istifadə edərək onların siyasi karyeralarının önünə sədd çəkdiklərini və əvvəlcədən uğursuzluğa məhkum olduqlarını bir daha nümayiş etdirdilər.

Ölkəmiz növbəti bələdiyyə seçkiləri ərəfəsində olmasına baxmayaraq, dırnaqarası müxalifətçilər hələ də anlamırlar ki, bu Prezident və ya parlament seçkiləri deyil, bir kəlmə də olsun bələdiyyə seçkilərindən danışmırlar, namizədlərini irəli sürmürlər, bütün seçkilərdə olduğu kimi, konstruktiv platforma ilə deyil, özlərinə xas eyni şablon şüarlarla, əsassız və cəfəng fikirlərlə çıxış edirlər. Lakin dərk etmirlər ki, nə bugünkü müstəqil, azad, demokratik və qüdrətli Azərbaycan dövləti doxsanıncı illərin Azərbaycanıdır, nə də o illərdə hakimiyyəti zorla ələ keçirən Xalq Cəbhəsi-"Müsavat" cütlüyünün səriştəsiz, rüsvayçı və xəyanətkar fəaliyyəti nəticəsində böyük bəlalara və vətəndaş qarşıdurmalarına düçar olmuş xalqımız həmin xalqdır. Azərbaycan xalqı müdrik xalq olaraq hər zaman yaxşını pisdən, ağı qaradan çox gözəl seçmək qabiliyyətinə malikdir.

Başqa bir sual, görəsən, bələdiyyə seçkilərində maraqlı olmayan dağıdıcı müxalifət son dövrdə niyə belə "fəallaşıb", hər həftə piket, mitinq adı ilə ölkəmizdə ictimai-siyasi sabitliyi və asayişi pozmaq üçün dəridən-qabıqdan çıxır? Cavab yenə də çox sadə və necə deyərlər, gün kimi aydındır. Azərbaycan son 16 ildə möhtəşəm uğurlara imza atıb, dinamik, dayanıqlı və davamlı surətdə inkişaf edir, müstəqil xarici siyasət yürüdür, iqtisadiyyatı yüksək artım templəri ilə böyüyür, şaxələnir, gündən-günə neftdən asılılığını azaldır, ÜDM-də qeyri-neft sektorunun payını ilbəil yüksəldir, xarici borc göstəricilərinə görə dünya ölkələri arasında ən əlverişli mövqelərdə yer alır, valyuta ehtiyatlarının əhəmiyyətli dərəcədə artırılmasına nail olub, dünyanın çox güclü ordularından birinə sahibdir, əhalinin sosial vəziyyəti xeyli dərəcədə yaxşılaşıb, xüsusilə cari ilin əvvəlindən başlayaraq iki mərhələdə inqilabi sosial islahatlar paketinin reallaşdırılması nəticəsində 4,2 milyondan çox əhalinin rifahı yüksəlib, bu məqsədlə hər il 3,9 milyard manatdan çox əlavə vəsait nəzərdə tutulub və bütün bunların ardıcıl olaraq davam etdirilməsi üçün real zəminlər formalaşdırılmışdır. Ölkə başçısının güclü siyasi iradəsi və apardığı cəsarətli, müstəqil, praqmatik siyasəti sayəsində qısa müddətdə ictimai həyatımızın istisnasız olaraq bütün sahələrində əldə olunan nəticələr Azərbaycanın beynəlxalq nüfuzunu ildən-ilə yüksəldir, beynəlxalq reytinqlərdə mövqeyini əhəmiyyətli dərəcədə irəlilədir, dünyada və regionda söz sahibinə çevirir, beynəlxalq təşkilatlarda ölkəmizin maraq və mövqeyinə olan dəstəyi getdikcə artırır. Şübhəsizdir ki, bütün bunlar həm bizim təbii düşmənlərimizi, həm də onları dəstəkləyən bəzi bəlli qüvvələri narahat edir, buna görə də onlar hər vasitə ilə ölkəmizin güclənməsinin və qüdrətlənməsinin qarşısını almağa, pozitiv işlərə kölgə salmağa çalışırlar. Belə vasitələrdən biri də iradəsiz, əqidəsiz, xəyanətkar, şəxsi maraqlarını milli maraqlardan üstün tutan daxili "qüvvələri" ələ almaq və onlardan oyuncaq kimi istifadə etməklə öz çirkin niyyətlərinə nail olmaqdır. Məsələyə yalnız bu prizmadan yanaşdıqda, bilərəkdən və ya bilməyərəkdən fəaliyyətlərində xarici qüvvələrin tapşırıqlarını rəhbər tutan radikal müxalifətin dağıdıcı hərəkətlərinin əsas motivlərini başa düşmək o qədər də çətin deyildir.

Bu məntiqi yanaşma, eyni zamanda son iki ay ərzində ölkəmizdəki radikalların daha çox "fəallaşma"sının digər səbəblərini də üzə çıxarır. Məlum olduğu kimi, cənab Prezident Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında, bundan iki ay öncə Paşinyanın Xankəndində dediyi "Qarabağ Ermənistandır və nöqtə" sərsəm ifadəsinə tutarlı cavab olaraq "Qarabağ Azərbaycandır və nida işarəsi", Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında "MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur", "erməni xalqı, ilk növbədə, özü əvvəlki rəhbərliyin ölkəyə vurduğu bu ləkədən təmizlənməlidir", Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə "dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz" kimi ən ali tribunalardan səsləndirdiyi çağırışları ilə diplomatiya tariximizdə müdafiə taktikasından hücum taktikasına keçidin parlaq təzahürü olaraq Paşinyanı sözün əsl mənasında siyasi "nokaut" vəziyyətinə saldı və Azərbaycanın öz ərazi bütövlüyünün təmin edilməsində prinsipial mövqeyindən heç bir zaman geri çəkilməyəcəyini, Ermənistanın faşizmi dəstəkləyən neofaşist və dinimizə qarşı vandallıq edən islamofob xislətini bir daha beynəlxalq ictimaiyyət qarşısında ifşa etdi.

Bir neçə gün əvvəl isə Bakı növbəti qlobal miqyaslı bir tədbirə - 120 dövlətin üzv, 17 dövlət və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda təmsil olunduğu və BMT Baş Assambleyasından sonra ikinci ən böyük siyasi təsisat hesab olunan Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısına ev sahibliyi etdi. Ölkəmizin haqq səsini beynəlxalq ictimaiyyətin diqqətinə çatdıra bilmək üçün olduqca geniş təsirlərə malik olan bu mötəbər qlobal platformada cənab Prezident İlham Əliyev öz çıxışında Ermənistanın işğalçılıq siyasətini, ölkəmizə qarşı törədiyi soyqırımı və hərbi cinayətləri, işğal etdiyi ərazilərdə talançı və qanunsuz iqtisadi fəaliyyətləri haqqında məsələlərə geniş yer ayıraraq bir daha Ermənistanın dünyada sülhə, tərəqqiyə, sabitliyə və təhlükəsizliyə əngəl olan, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsiz və saymazlıqla yanaşan dövlət kimi həqiqi simasını üzə çıxardı. Bütün bu hadisələrin fonunda nə edəcəyini bilməyən Ermənistan rəhbərliyi hələ də təşviş və qorxu içərisindədir və Paşinyanın təcili olaraq Təhlükəsizlik Şurasının növbədənkənar iclasını çağırmasını da məhz bu təşvişin əlamətlərindən hesab etmək olar. Çünki işğalçı Ermənistanın rəhbərliyi artıq dərk edir ki, Azərbaycan müharibə qərarı qəbul etsə, çox qısa müddətdə nəinki işğal altında olan əraziləri azad edəcək, hətta ordumuz tarixi torpaqlarımız olan Göyçə, Zəngəzur və İrəvana kimi gedib çıxacaq. Ona görə də heç bir şübhə yoxdur ki, erməni lobbisi və ölkəmizi sevməyən digər qüvvələr bu səbəblərlə Azərbaycan iqtidarının diqqətini Dağlıq Qarabağ probleminin həllindən yayındıraraq yalnız daxili məsələlərlə məşğul olmağa cəlb etmək üçün Əli Kərimli və onun kimi digər radikallardan ölkəmizdə ictimai-siyasi asayişi pozaraq qarşıdurma yaratmaq üçün çox məharətlə istifadə edirlər.

Lakin erməni lobbisi və onların dəyirmanına su tökən dağıdıcı küçə müxalifəti ünsürləri bilməlidirlər ki, Azərbaycan bir qarış da olsa torpağını düşmən tapdağı altında qoymayacaq, müstəqil Azərbaycan dövlətinin bu gün istər xarici, istərsə də daxili düşmənlərinə layiqincə cavab verməyə qadir olan həm hərbi-siyasi, həm inzibati, həm də iqtisadi gücü və iradəsi vardır. Bu gücün bünövrəsində sarsılmaz xalq-iqtidar birliyi və güclü lider faktoru dayanır. Digər tərəfdən isə təhlükəsizliyimizin və ictimai asayişimizin keşiyində şərəflə dayanan hüquq-mühafizə orqanlarının ayıq-sayıq, çevik və təmkinli fəaliyyəti ilə fərqlənən təqdirəlayiq əməkdaşları. Azərbaycan polisi vətəndaşlarımızı bu dağıdıcı və gözü dönmüş radikallardan çox məharətlə qoruyaraq, hətta Avropa polisinə də örnək göstərdi. Avropada təşkil olunan etiraz aksiyalarında şahidi olduğumuz qeyri-insani davranışlara yol vermədən asayişi pozanları qanunlarımıza hörmətlə yanaşmağa və riayət etməyə çağırdılar, müvafiq xəbərdarlıqlara məhəl qoymayanları isə müvafiq qaydada tənbeh etdilər və cəzalandırdılar. Bu belə də olmalıdır, çünki qanuna tabe olmamağın adekvat cəzası olmalıdır. Bu hadisələrdən hamılıqla bir daha dərs almalıyıq, müstəqil dövlətçiliyimizi bütün təxribatlardan göz bəbəyimiz kimi qorumalıyıq, dağıdıcı qüvvələrə heç bir şans verməməliyik, unutmamalıyıq ki, dövlətçiliyin ən etibarlı qarantı və hakimiyyətin yeganə mənbəyi xalqdır, hakimiyyətə gəlməyin yeganə yolu isə demokratik və azad seçkilərdir.